Azərbaycan Respublikası vergilər nazirinin
24 sentyabr 2018-ci il tarixli 1817040100881600
nömrəli əmri ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikasının Vergilər Nazirliyinin**
**Hüquq departamentinin**

# ƏSASNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Vergilər Nazirliyinin (bundan sonra - Vergilər Nazirliyi) struktur vahidi olan Hüquq departamenti (bundan sonra – Departament) məhkəmə işlərinin təşkili, cinayət xarakterli materialların hüquqi ekspertizası və hüquqi təminat, həmçinin Vergilər Nazirliyinin və onun struktur vahidləri və bölmələrinin fəaliyyəti ilə bağlı hüquqi işlərin təşkili sahəsində (bundan sonra - müvafiq sahədə) hüquq xidməti göstərir və tənzimləmə fəaliyyətini həyata keçirir, müvafiq sahədə fəaliyyətin effektivliyinə və qanunvericiliyə uyğun icrasına cavabdehdir və buna görə məsuliyyət daşıyır.
1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununu, Azərbaycan Respublikasının Vergi Məcəlləsini, Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"ni, Azərbaycan Respublikasının digər qanunlarını, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikası Prezidentinin digər fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Azərbaycan Respublikası Vergilər Nazirliyinin Kollegiyasının qərarlarını, mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarını, Azərbaycan Respublikasının vergilər nazirinin (bundan sonra – vergilər naziri) əmrlərini, sərəncamlarını və bu Əsasnaməni rəhbər tutur.
1.3. Departament öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Vergilər Nazirliyinin digər struktur vahidi və bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

## 2. Departamentin fəaliyyət istiqamətləri

2.0. Departamentin fəaliyyət istiqamətləri aşağıdakılardır:
2.0.1. Müvafiq sahədə vergi siyasətinin formalaşmasında iştirak edir, bununla bağlı Vergilər Nazirliyinin rəhbərliyinə təkliflər verir və bu siyasətin həyata keçirilməsini təmin edir;
2.0.2. Müvafiq sahədə təşkilati və nəzarət tədbirlərini həyata keçirir;
2.0.3. Müvafiq sahənin inkişafını təmin edir;

2.0.4. Müvafiq sahədə normayaratma fəaliyyətini həyata keçirir;

## 3. Departamentin vəzifələri

3.0. Departament bu Əsasnamənin 2-ci hissəsi ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:
3.0.1. Mülki prosessual, inzibati prosessual və cinayət prosessual qanunvericiliyə uyğun olaraq Vergilər Nazirliyini (Vergilər Nazirliyinin aparatını) iddiaçı (ərizəçi), mülki iddiaçı, cavabdeh, mülki cavabdeh, zərər çəkmiş, üçüncü şəxs (maraqlı şəxs) və xüsusi ittihamçı qismində təhqiqat, istintaq və bütün məhkəmə orqanlarında təmsil etmək təhqiqat, istintaq və məhkəmə orqanlarının Vergilər Nazirliyinin mənafeyinə uyğun olmayan qanunsuz və əsassız qərarlarından şikayətlərin verilməsini təmin etmək;
3.0.2. Mülki prosessual, inzibati prosessual və cinayət prosessual qanunvericiliyə uyğun olaraq vergi orqanlarının təhqiqat, istintaq və bütün məhkəmə orqanlarında iddiaçı (ərizəçi), mülki iddiaçı, cavabdeh, mülki cavabdeh, zərər çəkmiş, üçüncü şəxs (maraqlı şəxs) və xüsusi ittihamçı qismində iştirak etdiyi işlər üzrə fəaliyyətinə (vergi orqanlarının hüquq strukturlarının məhkəməyə müraciət etdiyi işlər üzrə fəaliyyətinə, digər strukturların müraciətləri üzrə yalnız vergi orqanlarının mənafeyinə uyğun olmayan qanunsuz və əsassız qərarlarından şikayətlərin verilməsi üzrə fəaliyyətinə) ümumi nəzarət etmək;
3.0.3. Vergidən yayınma faktları ilə əlaqədar başlanmış cinayət işləri üzrə mülki iddiaçı, həmçinin qanunvericiliklə müəyyən edilmiş hallarda zərər çəkmiş şəxs və xüsusi ittihamçı qismində tanınma üçün vergi orqanları tərəfindən təhqiqat, istintaq və məhkəmə orqanlarına vaxtında müraciətlərin edilməsi məsələlərinə, hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi vergi ödəyicisi olan fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə ərizə ilə müraciət edilməsinə ümumi nəzarət etmək;
3.0.4. İddia (mülki iddia) ərizələrinin və mülki prosessual, inzibati prosessual və cinayət prosessual qanunvericilikdə nəzərdə tutulan digər ərizələrin (vergi borcunun alınması (tutulması) və siyahıya alınmış əmlakın ixtisaslaşdırılmış açıq hərracda satılması ilə əlaqədar olaraq qəbul edilmiş məhkəmə qərarlarının və əmrlərinin icrası ilə bağlı məhkəmələrə müraciətlər istisna olmaqla), etirazların, vəsatətlərin və şikayətlərin vaxtında hazırlanaraq təhqiqat, istintaq, məhkəmə orqanlarına təqdim edilməsinə, habelə qeyd olunan ərizələrə, etirazlara, vəsatətlərə, şikayətlərə və qərarlara sübutların və digər zəruri sənədlərin əlavə edilməsinə, məhkəmə işləri ilə əlaqədar sənədlərin Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (bundan sonra - AVİS) müvafiq altmodullarına daxil edilməsinə nəzarət etmək;
3.0.5. İbtidai istintaqı Vergilər Nazirliyinin səlahiyyətlərinə aid edilmiş cinayət xarakterli faktlara dair (cinayətlərin əlamətlərinin aşkar edilməsinə dair) daxil olmuş materialların hüquqi ekspertizasını aparmaq və nəticəsindən asılı olaraq aidiyyəti üzrə göndərilməsini və ya qaytarılmasını təmin etmək;
3.0.6. İbtidai istintaqı digər hüquq-mühafizə orqanlarının səlahiyyətlərinə aid edilmiş cinayət xarakterli faktlara dair (cinayətlərin əlamətlərinin aşkar edilməsinə dair) daxil olmuş materialların aidiyyəti üzrə göndərilməsini təmin etmək;
3.0.7. Məhkəmələrin və hüquq-mühafizə orqanlarının qərarlarının icrasının təmin edilməsi məqsədi ilə keçirilmiş vergi nəzarəti tədbirlərinin nəticəsinə dair daxil olmuş materialların

hüquqi ekspertizasını aparmaq və nəticəsindən asılı olaraq aidiyyəti üzrə göndərilməsini və ya qaytarılmasını təmin etmək;

3.0.8. Vergi bəyannamələrini (hesabatları) təqdim etməkdən, vergiləri, faizləri və maliyyə sanksiyalarını ödəməkdən, əmlakın siyahıya alınmasından, vergi orqanlarının qərarlarının icrasına şərait yaradılmasından, səyyar vergi yoxlamaları və operativ vergi nəzarəti tədbirlərindən yayınan şəxslərin tapılması, onların olduqları yerlərin və şəxsiyyətlərinin müəyyənləşdirilməsi barədə daxil olmuş materialların hüquqi ekspertizasını aparmaq və nəticəsindən asılı olaraq aidiyyəti üzrə göndərilməsini və ya qaytarılmasını təmin etmək;

3.0.9. Hüquq-mühafizə orqanlarından (xarici dövlətlərin hüquq-mühafizə orqanları istisna olmaqla) daxil olmuş sorğuların, istintaq və əməliyyat tapşırıqlarının və qərarların icrasının təmin edilməsi üçün aidiyyəti üzrə göndərilməsini təmin etmək;

3.0.10. Daxil olmuş prosessual qərarları araşdırmaq və onların ödəmə qabiliyyətinin olmaması əsası ilə xitam (rədd) edilən və cinayət xarakterli faktların təsdiqini tapmayan hissəsini, o cümlədən vergilərin (icbari ödənişlərin) azaldılması ilə nəticələnəcək hissəsini aidiyyəti üzrə göndərmək;

3.0.11. Vergi ödəyicilərinin əməllərində ibtidai istintaqın aparılması Vergilər Nazirliyinin səlahiyyətlərinə aid edilmiş cinayətlərin əlamətlərinin aşkar edilməsi barədə, o cümlədən onların törətdiyi əməllərdə həmin cinayətin tərkibinin olub-olmamasının araşdırılması barədə daxil olmuş məhkəmə və hüquq-mühafizə orqanlarının qərarlarının icra edilməsi üçün aidiyyəti üzrə göndərmək;

3.0.12. Vergi orqanları tərəfindən tərtib edilmiş, vergi ödəyicisi tərəfindən imzalanmasından imtina edilmiş və məsuliyyətə cəlb etmə haqqında qərar çıxarılmamış səyyar vergi yoxlaması aktları üzrə yoxlama materiallarına baxaraq rəy vermək, rəyin aidiyyəti üzrə göndərilməsini, onların icrasına nəzarət edilməsini və qeyd olunan məsələlərlə bağlı əlaqələndirmə fəaliyyətini təşkil etmək;

3.0.13. Vergilər Nazirliyinin və ona tabe olan vergi orqanlarının fəaliyyətini tənzimləyən və hüquqi statusunu müəyyən edən qanunvericilik aktlarının, habelə təşkilati-sərəncamverici və digər normativ sənədlərin layihələrini hazırlamaq;

3.0.14. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər dövlət müəssisə və təşkilatlardan Departamentə daxil olmuş hüquqi akt layihələrinə və təkliflərə (beynəlxalq əməkdaşlıq və iqtisadi sahə üzrə qanunvericiliklə, həmçinin vergi qanunvericiliyi ilə bağlı layihələr və təkliflər istisna olmaqla) qanunla müəyyən edilmiş qaydada və müddətdə baxaraq münasibət bildirmək;

3.0.15. Vergilər naziri tərəfindən viza verilməsi üçün Departamentə daxil olmuş hüquqi akt layihələrinə (beynəlxalq əməkdaşlıq və iqtisadi sahə üzrə qanunvericiliklə, həmçinin vergi qanunvericiliyi ilə bağlı layihələr istisna olmaqla) baxaraq müvafiq arayış hazırlamaq və Vergilər Nazirliyinin rəhbərliyinə təqdim etmək;

3.0.16. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının departamentin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

3.0.17. Vergilər Nazirliyinin rəhbərliyinə imzalanmaq üçün təqdim edilmiş qərar, əmr, sərəncam və məktub, layihələrinə qanunvericiliyin və Vergilər Nazirliyinin normativ

sənədlərinin tələbinə uyğun şəkildə baxaraq münasibət bildirmək və həmin layihələrə razılaşdırma və ya viza vermək;
3.0.18. Vergilər Nazirliyinin struktur vahidləri və bölmələri tərəfindən hazırlanmış hüquqi aktların və Vergilər Nazirliyinin normativ sənədlərinin layihələrinə baxaraq münasibət bildirmək və normativ hüquqi aktların layihələrinə "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq məcburi hüquqi ekspertiza rəyi vermək;
3.0.19. Vergilər Nazirliyinin normativ hüquqi akt hesab edilən Kollegiya Qərarlarının Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 1 iyul 2011-ci il tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə" ilə müəyyən edilmiş müddətdə və qaydada Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etmək;
3.0.20. Vergilər Nazirliyinin struktur vahid və bölmələrinin əsasnamələrinin aidiyyəti strukturların təklifləri əsasında hazırlanmasını təmin etmək və əsasnamələrin təkmilləşdirilməsi ilə bağlı Vergilər Nazirliyinin rəhbərliyinə təkliflər vermək;
3.0.21. Bu əsasnamə ilə departamentin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət (inzibati şikayətlər istisna olmaqla), təklif və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;
3.0.22. Vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsi və vergi qanunvericiliyi ilə digər hüquqi aktlar arasında mövcud olan kolliziyaların (ziddiyyətlərin) aradan qaldırılması istiqamətində Vergilər Nazirliyinin müvafiq struktur vahidi ilə birlikdə təhlillər və müzakirələr aparmaq və nəticəsindən asılı olaraq zəruri tədbirlər görmək;
3.0.23. Vergilər Nazirliyinin təşkilati-sərəncamverici və digər normativ sənədlərinin ziddiyyətli, aydın olmayan və hüquqi əhəmiyyətini itirmiş müddəalarını müəyyənləşdirmək və nəticəsindən asılı olaraq həmin sənədlərin təkmilləşdirilməsi istiqamətində Vergilər Nazirliyinin rəhbərliyinə təkliflər vermək;
3.0.24. Vergilər Nazirliyinin aidiyyəti struktur vahidlərinin icraatında olan müraciətlər üzrə hazırlanmış sənəd layihələrinə baxılan zaman aşkar edilmiş qanunvericilikdə olan ziddiyyətli halları və boşluqları təhlil etmək və aidiyyəti hüquqi aktlarda dəyişikliklər edilməsi ilə bağlı layihələr hazırlamaq;
3.0.25. Hüquqi aktlarda edilmiş dəyişikliklərlə əlaqədar olaraq Vergilər Nazirliyinin təşkilati-sərəncamverici və digər normativ sənədlərinin qeyd olunan dəyişikliklərə uyğunlaşdırılmasını təmin etmək;
3.0.26. Vergilər Nazirliyinin struktur vahidi və bölmələrinə Vergilər Nazirliyinin fəaliyyət istiqamətləri üzrə hüquqi yardım göstəmək və hüquqi işlərin təşkili və qanunvericiliyin düzgün şəkildə tətbiqi ilə bağlı aşkar olunan nöqsanların qarşısının alınması məqsədi ilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;
3.0.27. Zərurət yarandıqda Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı mülki və digər müqavilələrin hazırlanmasında iştirak etmək və belə müqavilələrin hüquqi ekspertizasını həyata keçirmək;

3.0.28. Aşağıda göstərilənlərin uçotunu aparmaq (AVİS-in müvafiq altmodulunda uçota alınanlar istisna olmaqla), onları təhlil etmək, icmallaşdırmaq və nəticəsi barədə Vergilər Nazirliyinin rəhbərliyinə rüblük, yarımillik və illik arayışlar (hesabatlar) təqdim etmək:
1. Mülki prosessual, inzibati prosessual, cinayət prosessual qanunvericiliyə və bu Əsasnamənin 3.0.2-ci yarımbəndinə uyğun olaraq vergi orqanlarının təhqiqat, istintaq və bütün məhkəmə orqanlarında iddiaçı (ərizəçi), mülki iddiaçı, cavabdeh, mülki cavabdeh, zərər çəkmiş, üçüncü şəxs (maraqlı şəxs) və xüsusi ittihamçı qismində iştirak etdiyi işlər üzrə daxil olmuş hesabatların;
2. Daxil olmuş materialların, prosessual qərarların və əlaqələndirmə fəaliyyəti üzrə digər sənədlərin;
3. Baxılması, təftiş edilməsi, münasibət bildirilməsi və məcburi hüquqi ekspertiza rəyi verilməsi məqsədi ilə daxil olmuş və göndərilmiş sənədlərin və layihələrin.
3.0.29. Aşağıdakı məsələlərlə bağlı vergi orqanlarına metodiki köməklik göstərmək:
1. Məhkəmə işlərinin təşkili;
2. Daxil olmuş materialların hüquqi ekspertizası zamanı ortaya çıxan nöqsanların aradan qaldırılması;
3. Hüquqi işlərin təşkili və qanunvericiliyin düzgün şəkildə tətbiqi.
3.0.30. Departamentin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların və Vergilər Nazirliyinin təşkilati-sərəncamverici və digər normativ sənədlərinin öyrənilməsini təmin etmək;
3.0.31. Departamentin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində Vergilər Nazirliyinin rəhbərliyinə təkliflər vermək;
3.0.32. Vergilər Nazirliyinin inkişaf konsepsiyasının həyata keçirilməsində öz səlahiyyətləri daxilində iştirak etmək;
3.0.33. Departamentin strukturuna daxil olan idarənin və şöbələrin iş planlarını tərtib etmək və onların icrasına nəzarət etmək;
3.0.34. Departamentdə öz səlahiyyətləri daxilində daxili nəzarəti təşkil etmək;
3.0.35. Öz səlahiyyətləri daxilində insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini təmin etmək və onların pozulmasının qarşısını almaq;
3.0.36. Vergilər Nazirliyinin digər struktur vahid və bölmələrinin müvafiq sahə ilə bağlı fəaliyyətini əlaqələndirmək;
3.0.37. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;
3.0.38. Normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;
3.0.39. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

## 4. Departamentin hüquqları

4.0. Departament öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:
4.0.1. Vergi siyasətinin və inzibatçılığının təkmilləşdirilməsi sahəsində öz səlahiyyətləri daxilində təkliflər vermək;
4.0.2. Müvafiq sahədə görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və Vergilər Nazirliyinin təşkilati-sərəncamverici və digər normativ sənədlərinin təkmilləşdirilməsi

məqsədi ilə Vergilər Nazirliyinin rəhbərliyinə təqdim edilməsi üçün müvafiq təkliflər (layihələr) hazırlamaq;
4.0.3. Vergilər Nazirliyinin, onun struktur vahidləri və bölmələrinin, o cümlədən Departamentin fəaliyyətini tənzimləyən və hüquqi statusunu müəyyən edən qanunvericilik aktlarının, habelə təşkilati-sərəncamverici və digər normativ sənədlərin layihələrinin hazırlanmasında və təkmilləşdirilməsində iştirak etmək;
4.0.4. Vəzifə funksiyalarının icrası ilə əlaqədar Vergilər Nazirliyinin struktur vahid və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;
4.0.5. Vəzifə funksiyalarının icrası ilə əlaqədar vergi orqanlarının vəzifəli şəxslərindən və vergi ödəyicilərindən izahatlar almaq;
4.0.6. Müvafiq sahədə tənzimləmə fəaliyyətinin həyata keçirilməsi zamanı vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliyi düzgün tətbiq etməməsi, habelə vəzifələrinin icrasında nöqsan və pozuntulara yol verməsi halları aşkar olunduqda, onların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi barədə Vergilər Nazirliyinin rəhbərliyinə müvafiq təkliflər vermək;
4.0.7. Vergilər Nazirliyində və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və Departamentin fəaliyyəti ilə bağlı keçirilən yerli və beynəlxalq tədbirlərdə Vergilər Nazirliyini təmsil etmək;
4.0.8. Hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək üçün müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;
4.0.9. Aidiyyəti hüquqi akt layihələrinin hazırlanması məqsədi ilə beynəlxalq təcrübənin öyrənilməsi zərurəti yarandıqda, müvafiq beynəlxalq təcrübə barədə arayışın təqdim edilməsi üçün Vergilər Nazirliyinin aidiyyəti struktur vahidinə müraciət etmək;
4.0.10. Vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində görülən tədbirlərdə iştirak etmək;
4.0.11. Müvafiq sahə üzrə beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Vergilər Nazirliyinin rəhbərliyinə təkliflər vermək;
4.0.12. Normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;
4.0.13. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

## 5. Departamentin fəaliyyətinin təşkili

5.1. Departamentin strukturunu və işçilərinin sayını vergilər naziri müəyyən və təsdiq edir.
5.2. Departamentin strukturuna 1 idarə (Məhkəmə işlərinin təşkili idarəsi) və 2 şöbə (Cinayət xarakterli materialların hüquqi ekspertizası şöbəsi və Hüquqi təminat şöbəsi) daxildir. Məhkəmə işlərinin təşkili idarəsinin tərkibinə 2 şöbə (İddiaçı qismində məhkəmə işlərinin təşkili şöbəsi və Cavabdeh qismində məhkəmə işlərinin təşkili şöbəsi) daxildir.
5.3. Departamentin fəaliyyətinə vergilər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən şəxs (Departamentin baş direktoru) rəhbərlik edir. Departamentin baş direktoru Departamentə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.
5.4. Departamentin baş direktorunun vergilər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavinləri vardır. Departamentin baş direktorunun müavinləri Departamentin

baş direktoru tərəfindən onlara həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar. Departamentin baş direktoru olmadıqda onun səlahiyyətlərini müəyyən edilmiş qaydada Departamentin baş direktorunun müavinlərindən biri həyata keçirir.

5.5. Departamentin digər vəzifəli şəxsləri vergilər naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

## 6. Vəzifəli şəxslərin səlahiyyət bölgüsü, cavabdehlik və məsuliyyət

6.1. Baş direktor:

6.1.1. Müvafiq sahədə departamentin nəzarət sahəsinə aid olan struktur bölmələrin fəaliyyətində effektivliyin təmin edilməsi, onların işlərinə əməli köməkliyin göstərilməsi və görülən işlərə gündəlik nəzarətin təşkil edilməsi məqsədilə departamentin əməkdaşları arasında vergi orqanları üzrə kuratorları müəyyən edir.

6.1.2. Departamentin fəaliyyətini təşkil edir və ona rəhbərlik edir;

6.1.3. Tabeliyində olan vəzifəli şəxslər tərəfindən əmək, icra və xidmət intizamına riayət edilməsinə nəzarət edir;

6.1.4. Baş direktorun müavinləri arasında vəzifə bölgüsünü aparır və müvafiq fəaliyyət sahələrinin idarə olunmasını onlara həvalə edir;

6.1.5. Departamentə həvalə edilmiş vəzifələrin icrasını təmin etmək məqsədilə tərtib edilmiş iş planlarını və digər bu kimi sənədləri təsdiq edir, habelə iş planında nəzərdə tutulmuş tədbirlərin icra edilməsinə nəzarət edir;

6.1.6. Departament üzrə Vergilər Nazirliyinin Kollegiyasında müzakirə edilməli məsələləri müəyyən edir və bu barədə təkliflərini Vergilər Nazirliyinin rəhbərliyinə təqdim edir;

6.1.7. Bu Əsasnamənin 1.2-ci bəndində göstərilən hüquqi aktların və normativ sənədlərin vaxtında və lazımi səviyyədə icrasını təmin edir;

6.1.8. Departamentin və funksional tabeliyində olan strukturların əməkdaşları barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi üçün Vergilər Nazirliyinin rəhbərliyinə təqdimatlar verir;

6.1.9. Departamentə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi məqsədilə Vergilər Nazirliyinin bütün strukturlarından zəruri məlumat və sənədləri əldə edir;

6.1.10. Departamentə daxil olan müraciətlərin baxılması işini təşkil edir, habelə daxili sənədlərin imzalanmasını həyata keçirir;

6.1.11. Departamenti təmsil edir.

6.2. Baş direktor, müavinləri, idarə direktoru, şöbə rəhbərləri işçi qüvvəsindən səmərəli istifadə edilməsi məqsədilə iş stajı və peşəkarlıq səviyyələrini nəzərə almaqla hər bir əməkdaş üzrə iş bölgüsünü müəyyən edir, onları əlaqələndirir, işlərin həyata keçirilməsini təşkil edir, həmin işlərin effektiv və qanunvericiliyin tələblərinə uyğun şəkildə icrasına nəzarət edir və buna görə bilavasitə cavabdehdirlər.

6.3. Departamentin işçiləri bu Əsasnamənin tələblərinin pozulmasına görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məsuliyyət daşıyırlar.

## 7. Departamentin strukturuna daxil olan idarə və şöbələrin vəzifələri və hüquqları

**7.1. Məhkəmə işlərinin təşkili idarəsinin vəzifələri aşağıdakılardır:**

7.1.1. Mülki prosessual, inzibati prosessual və cinayət prosessual qanunvericiliyə uyğun olaraq Vergilər Nazirliyini (Vergilər Nazirliyinin aparatını) iddiaçı (ərizəçi), mülki iddiaçı, cavabdeh, mülki cavabdeh, zərər çəkmiş, üçüncü şəxs (maraqlı şəxs) və xüsusi ittihamçı qismində təhqiqat, istintaq və bütün məhkəmə orqanlarında təmsil etmək, təhqiqat, istintaq və məhkəmə orqanlarının Vergilər Nazirliyinin mənafeyinə uyğun olmayan qanunsuz və əsassız qərarlarından şikayətlərin verilməsini təmin etmək;

7.1.2. Mülki prosessual, inzibati prosessual və cinayət prosessual qanunvericiliyə uyğun olaraq vergi orqanlarının təhqiqat, istintaq və bütün məhkəmə orqanlarında iddiaçı (ərizəçi), mülki iddiaçı, cavabdeh, mülki cavabdeh, zərər çəkmiş, üçüncü şəxs (maraqlı şəxs) və xüsusi ittihamçı qismində iştirak etdiyi işlər üzrə fəaliyyətinə (vergi orqanlarının hüquq strukturlarının məhkəməyə müraciət etdiyi işlər üzrə fəaliyyətinə, digər strukturların müraciətləri üzrə yalnız vergi orqanlarının mənafeyinə uyğun olmayan qanunsuz və əsassız qərarlarından şikayətlərin verilməsi üzrə fəaliyyətinə) ümumi nəzarət etmək;

7.1.3. Vergidən yayınma faktları ilə əlaqədar başlanmış cinayət işləri üzrə mülki iddiaçı, həmçinin qanunvericiliklə müəyyən edilmiş hallarda zərər çəkmiş şəxs və xüsusi ittihamçı qismində tanınma üçün vergi orqanları tərəfindən təhqiqat, istintaq və məhkəmə orqanlarına vaxtında müraciətlərin edilməsi məsələlərinə, hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi vergi ödəyicisi olan fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə ərizə ilə müraciət edilməsinə ümumi nəzarət etmək;

7.1.4. İddia (mülki iddia) ərizələrinin və mülki prosessual, inzibati prosessual və cinayət prosessual qanunvericilikdə nəzərdə tutulan digər ərizələrin (vergi borcunun alınması (tutulması) və siyahıya alınmış əmlakın ixtisaslaşdırılmış açıq hərracda satılması ilə əlaqədar olaraq qəbul edilmiş məhkəmə qərarlarının və əmrlərinin icrası ilə bağlı məhkəmələrə müraciətlər istisna olmaqla), etirazların, vəsatətlərin və şikayətlərin vaxtında hazırlanaraq təhqiqat, istintaq, məhkəmə orqanlarına təqdim edilməsinə, habelə qeyd olunan ərizələrə, etirazlara, vəsatətlərə, şikayətlərə və qərarlara sübutların və digər zəruri sənədlərin əlavə edilməsinə, məhkəmə işləri ilə əlaqədar sənədlərin AVİS-in müvafiq altmodullarına daxil edilməsinə nəzarət etmək;

7.1.5. Bu əsasnamə ilə idarənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət (inzibati şikayətlər istisna olmaqla), təklif və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.1.6. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının idarənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.1.7. Mülki prosessual, inzibati prosessual, cinayət prosessual qanunvericiliyə və bu Əsasnamənin 7.1.2-ci yarımbəndinə uyğun olaraq vergi orqanlarının təhqiqat, istintaq və

bütün məhkəmə orqanlarında iddiaçı (ərizəçi), mülki iddiaçı, cavabdeh, mülki cavabdeh, zərər çəkmiş və üçüncü şəxs (maraqlı şəxs), xüsusi ittihamçı qismində iştirak etdiyi işlər üzrə daxil olmuş hesabatların uçotunu aparmaq, onları təhlil etmək, icmallaşdırmaq və nəticəsi barədə Departamentin rəhbərliyinə rüblük, yarımillik və illik arayışlar (hesabatlar) təqdim etmək;

7.1.8. Məhkəmə işlərinin təşkili ilə bağlı vergi orqanlarına metodiki köməklik göstərmək;

7.1.9. İdarənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, Vergilər Nazirliyinin təşkilati-sərəncamverici sənədlərinin öyrənilməsini təmin etmək;

7.1.10. İdarənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində Departamentin rəhbərliyinə təkliflər vermək;

7.1.11. Məhkəmə işlərinin təşkili sahəsində aidiyyəti hüquqi aktların tətbiqi ilə bağlı nöqsanların qarşısının alınması məqsədi ilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

7.1.12. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.1.13. Normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.1.14. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**7.2. Məhkəmə işlərinin təşkili idarəsinin hüquqları aşağıdakılardır:**

7.2.1. Məhkəmə işlərinin təşkili sahəsində görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və Vergilər Nazirliyinin təşkilati-sərəncamverici və digər normativ sənədlərinin təkmilləşdirilməsi məqsədi ilə Departamentin rəhbərliyinə təqdim edilməsi üçün müvafiq təkliflər (layihələr) hazırlamaq;

7.2.2. Öz səlahiyyətləri daxilində Vergilər Nazirliyinin, ona tabe olan vergi orqanlarının, o cümlədən Departamentin fəaliyyətini tənzimləyən və hüquqi statusunu müəyyən edən qanunvericilik aktlarının, habelə təşkilati-sərəncamverici və digər normativ sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

7.2.3. Vəzifə funksiyalarının icrası ilə əlaqədar Vergilər Nazirliyinin struktur vahid və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

7.2.4. Vəzifə funksiyalarının icrası ilə əlaqədar vergi orqanlarının vəzifəli şəxslərindən və vergi ödəyicilərindən izahatlar almaq üçün Departamentin rəhbərliyinə müraciət etmək;

7.2.5. Məhkəmə işlərinin təşkili sahəsində tənzimləmə fəaliyyətinin həyata keçirilməsi zamanı vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliyi düzgün tətbiq etməməsi, habelə vəzifələrinin icrasında nöqsan və pozuntulara yol verməsi halları aşkar olunduqda, onların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi barədə Departamentin rəhbərliyinə müvafiq təkliflər vermək;

7.2.6. Vergilər Nazirliyində və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və idarənin fəaliyyəti ilə bağlı keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Departamenti təmsil etmək;

7.2.7. Vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində görülən tədbirlərdə iştirak etmək;

7.2.8. Məhkəmə işlərinin təşkili sahəsində beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Departamentin rəhbərliyinə təkliflər vermək;

7.2.9. Normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.2.10. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.3. İddiaçı qismində məhkəmə işlərinin təşkili şöbəsinin vəzifələri aşağıdakılardır:**

7.3.1. Mülki prosessual, inzibati prosessual və cinayət prosessual qanunvericiliyə uyğun olaraq Vergilər Nazirliyini (Vergilər Nazirliyinin aparatını) iddiaçı (ərizəçi), mülki iddiaçı, zərər çəkmiş şəxs və xüsusi ittihamçı qismində təhqiqat, istintaq və bütün məhkəmə orqanlarında təmsil etmək, təhqiqat, istintaq və məhkəmə orqanlarının Vergilər Nazirliyinin mənafeyinə uyğun olmayan qanunsuz və əsassız qərarlarından şikayətlərin verilməsini təmin etmək;

7.3.2. Mülki prosessual, inzibati prosessual və cinayət prosessual qanunvericiliyə uyğun olaraq vergi orqanlarının təhqiqat, istintaq və bütün məhkəmə orqanlarında iddiaçı (ərizəçi), mülki iddiaçı, zərər çəkmiş şəxs və xüsusi ittihamçı qismində iştirak etdiyi işlər üzrə fəaliyyətinə (vergi orqanlarının hüquq strukturlarının məhkəməyə müraciət etdiyi işlər üzrə fəaliyyətinə, digər strukturların müraciətləri üzrə yalnız vergi orqanlarının mənafeyinə uyğun olmayan qanunsuz və əsassız qərarlarından şikayətlərin verilməsi üzrə fəaliyyətinə) ümumi nəzarət etmək;

7.3.3. Vergidən yayınma faktları ilə əlaqədar başlanmış cinayət işləri üzrə mülki iddiaçı, həmçinin qanunvericiliklə müəyyən edilmiş hallarda zərər çəkmiş şəxs və xüsusi ittihamçı qismində tanınma üçün vergi orqanları tərəfindən təhqiqat, istintaq və məhkəmə orqanlarına vaxtında müraciətlərin edilməsi məsələlərinə, hesablanmış vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının ödənilməsini təmin etmək üsulu kimi vergi ödəyicisi olan fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması üçün məhkəməyə ərizə ilə müraciət edilməsinə ümumi nəzarət etmək;

7.3.4. İddia (mülki iddia) ərizələrinin və mülki prosessual, inzibati prosessual və cinayət prosessual qanunvericilikdə nəzərdə tutulan digər ərizələrin (vergi borcunun alınması (tutulması) və siyahıya alınmış əmlakın ixtisaslaşdırılmış açıq hərracda satılması ilə əlaqədar olaraq qəbul edilmiş məhkəmə qərarlarının və əmrlərinin icrası ilə bağlı məhkəmələrə müraciətlər istisna olmaqla), etirazların, vəsatətlərin və şikayətlərin vaxtında hazırlanaraq təhqiqat, istintaq, məhkəmə orqanlarına, habelə qeyd olunan ərizələrə, etirazlara, vəsatətlərə, şikayətlərə və qərarlara sübutların və digər zəruri sənədlərin əlavə edilməsinə, məhkəmə işləri ilə əlaqədar sənədlərin AVİS-in müvafiq altmodullarına daxil edilməsinə nəzarət etmək;

7.3.5. Bu əsasnamə ilə şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət (inzibati şikayətlər istisna olmaqla), təklif və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.3.6. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının şöbənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.3.7. Mülki prosessual, inzibati prosessual, cinayət prosessual qanunvericiliyə və bu Əsasnamənin 7.3.2-ci yarımbəndinə uyğun olaraq vergi orqanlarının təhqiqat, istintaq və bütün məhkəmə orqanlarında iddiaçı (ərizəçi), mülki iddiaçı, zərər çəkmiş şəxs və xüsusi ittihamçı qismində iştirak etdiyi işlər üzrə daxil olmuş hesabatların uçotunu aparmaq, onları təhlil etmək, icmallaşdırmaq və nəticəsi barədə İdarənin rəhbərliyinə rüblük, yarımillik və illik arayışlar (hesabatlar) təqdim etmək;

7.3.8. İddiaçı qismində məhkəmə işlərinin təşkili ilə bağlı vergi orqanlarına metodiki köməklik göstərmək;

7.3.9. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, Vergilər Nazirliyinin təşkilati-sərəncamverici sənədlərinin öyrənilməsini təmin etmək;

7.3.10. Şöbənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində İdarənin rəhbərliyinə təkliflər vermək;

7.3.11. İddiaçı qismində məhkəmə işlərinin təşkili sahəsində aidiyyəti hüquqi aktların tətbiqi ilə bağlı nöqsanların qarşısının alınması məqsədi ilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

7.3.12. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.3.13. Normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.3.14. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**7.4. İddiaçı qismində məhkəmə işlərinin təşkili şöbəsinin hüquqları aşağıdakılardır:**

7.4.1. İddiaçı qismində məhkəmə işlərinin təşkili sahəsində görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və Vergilər Nazirliyinin təşkilati-sərəncamverici və digər normativ sənədlərinin təkmilləşdirilməsi məqsədi ilə İdarənin rəhbərliyinə təqdim edilməsi üçün müvafiq təkliflər (layihələr) hazırlamaq;

7.4.2. Öz səlahiyyətləri daxilində Vergilər Nazirliyinin, ona tabe olan vergi orqanlarının, o cümlədən Departamentin fəaliyyətini tənzimləyən və hüquqi statusunu müəyyən edən qanunvericilik aktlarının, habelə təşkilati-sərəncamverici və digər normativ sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

7.4.3. Vəzifə funksiyalarının icrası ilə əlaqədar Vergilər Nazirliyinin struktur vahid və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

7.4.4. Vəzifə funksiyalarının icrası ilə əlaqədar vergi orqanlarının vəzifəli şəxslərindən və vergi ödəyicilərindən izahatlar almaq üçün İdarənin rəhbərliyinə müraciət etmək;

7.4.5. İddiaçı qismində məhkəmə işlərinin təşkili sahəsində tənzimləmə fəaliyyətinin həyata keçirilməsi zamanı vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliyi düzgün tətbiq etməməsi, habelə vəzifələrinin icrasında nöqsan və pozuntulara yol verməsi halları

aşkar olunduqda, onların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi barədə İdarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

7.4.6. Vergilər Nazirliyində və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və şöbənin fəaliyyəti ilə bağlı keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə idarəni təmsil etmək;

7.4.7. Vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində görülən tədbirlərdə iştirak etmək;

7.4.8. İddiaçı qismində məhkəmə işlərinin təşkili sahəsində beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı İdarənin rəhbərliyinə təkliflər vermək;

7.4.9. Normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.4.10. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.5. Cavabdeh qismində məhkəmə işlərinin təşkili şöbəsinin vəzifələri aşağıdakılardır:**

7.5.1. Vergilər Nazirliyini (Vergilər Nazirliyinin aparatını) cavabdeh, mülki cavabdeh və üçüncü şəxs (maraqlı şəxs) qismində bütün məhkəmə instansiyalarında təmsil etmək, Vergilər Nazirliyinin mənafeyinə uyğun olmayan qanunsuz və əsassız məhkəmə qərarlarından şikayətlərin verilməsini təmin etmək;

7.5.2. Vergi orqanlarının məhkəmələrdə cavabdeh, mülki cavabdeh və üçüncü şəxs (maraqlı şəxs) qismində iştirak etdiyi işlər üzrə fəaliyyətinə ümumi nəzarət etmək;

7.5.3. Etirazların və şikayətlərin vaxtında hazırlanaraq məhkəmələrə təqdim edilməsinə, habelə etiraz və şikayətlərə sübutların və digər zəruri sənədlərin əlavə edilməsinə, məhkəmə işləri ilə əlaqədar sənədlərin AVİS-in müvafiq altmodullarına daxil edilməsinə nəzarət etmək;

7.5.4. Bu əsasnamə ilə şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət (inzibati şikayətlər istisna olmaqla), təklif və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.5.5. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının şöbənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.5.6. Vergi orqanlarının məhkəmələrdə cavabdeh, mülki cavabdeh və üçüncü şəxs (maraqlı şəxs) qismində iştirak etdiyi işlər üzrə daxil olmuş hesabatlarının uçotunu aparmaq, onları təhlil etmək, icmallaşdırmaq və nəticəsi barədə İdarənin rəhbərliyinə rüblük, yarımillik və illik arayışlar (hesabatlar) təqdim etmək;

7.5.7. Cavabdeh və mülki cavabdeh qismində məhkəmə işlərinin təşkili ilə bağlı vergi orqanlarına metodiki köməklik göstərmək;

7.5.8. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, Vergilər Nazirliyinin təşkilati-sərəncamverici sənədlərinin öyrənilməsini təmin etmək;

7.5.9. Şöbənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində İdarənin rəhbərliyinə təkliflər vermək;

7.5.10. Cavabdeh və mülki cavabdeh qismində məhkəmə işlərinin təşkili sahəsində aidiyyəti hüquqi aktların tətbiqi ilə bağlı nöqsanların qarşısının alınması məqsədi ilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

7.5.11. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.5.12. Normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.5.13. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**7.6. Cavabdeh qismində məhkəmə işlərinin təşkili şöbəsinin hüquqları aşağıdakılardır:**

7.6.1. Cavabdeh və mülki cavabdeh qismində məhkəmə işlərinin təşkili sahəsində görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və Vergilər Nazirliyinin təşkilati-sərəncamverici və digər normativ sənədlərinin təkmilləşdirilməsi məqsədi ilə İdarənin rəhbərliyinə təqdim edilməsi üçün müvafiq təkliflər (layihələr) hazırlamaq;

7.6.2. Öz səlahiyyətləri daxilində Vergilər Nazirliyinin, ona tabe olan vergi orqanlarının, o cümlədən Departamentin fəaliyyətini tənzimləyən və hüquqi statusunu müəyyən edən qanunvericilik aktlarının, habelə təşkilati-sərəncamverici və digər normativ sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

7.6.3. Vəzifə funksiyalarının icrası ilə əlaqədar Vergilər Nazirliyinin struktur vahid və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

7.6.4. Vəzifə funksiyalarının icrası ilə əlaqədar vergi orqanlarının vəzifəli şəxslərindən və vergi ödəyicilərindən izahatlar almaq üçün İdarənin rəhbərliyinə müraciət etmək;

7.6.5. Cavabdeh və mülki cavabdeh qismində məhkəmə işlərinin təşkili sahəsində tənzimləmə fəaliyyətinin həyata keçirilməsi zamanı vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliyi düzgün tətbiq etməməsi, habelə vəzifələrinin icrasında nöqsan və pozuntulara yol verməsi halları aşkar olunduqda, onların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi barədə İdarənin rəhbərliyinə müvafiq təkliflər vermək;

7.6.6. Vergilər Nazirliyində və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və şöbənin fəaliyyəti ilə bağlı keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə idarəni təmsil etmək;

7.6.7. Vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində görülən tədbirlərdə iştirak etmək;

7.6.8. Cavabdeh və mülki cavabdeh qismində məhkəmə işlərinin təşkili sahəsində beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı İdarənin rəhbərliyinə təkliflər vermək;

7.6.9. Normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.6.10. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.7. Cinayət xarakterli materialların hüquqi ekspertizası şöbəsinin vəzifələri aşağıdakılardır:**

7.7.1. İbtidai istintaqı Vergilər Nazirliyinin səlahiyyətlərinə aid edilmiş cinayət xarakterli faktlara dair (cinayətlərin əlamətlərinin aşkar edilməsinə dair) daxil olmuş materialların hüquqi ekspertizasını aparmaq və nəticəsindən asılı olaraq aidiyyəti üzrə göndərilməsini və ya qaytarılmasını təmin etmək;

7.7.2. İbtidai istintaqı digər hüquq-mühafizə orqanlarının səlahiyyətlərinə aid edilmiş cinayət xarakterli faktlara dair (cinayətlərin əlamətlərinin aşkar edilməsinə dair) daxil olmuş materialların aidiyyəti üzrə göndərilməsini təmin etmək;

7.7.3. Məhkəmələrin və hüquq-mühafizə orqanlarının qərarlarının icrasının təmin edilməsi məqsədi ilə keçirilmiş vergi nəzarəti tədbirlərinin nəticəsinə dair daxil olmuş materialların hüquqi ekspertizasını aparmaq və nəticəsindən asılı olaraq aidiyyəti üzrə göndərilməsini və ya qaytarılmasını təmin etmək;

7.7.4. Vergi bəyannamələrini (hesabatları) təqdim etməkdən, vergiləri, faizləri və maliyyə sanksiyalarını ödəməkdən, əmlakın siyahıya alınmasından, vergi orqanlarının qərarlarının icrasına şərait yaradılmasından, səyyar vergi yoxlamaları və operativ vergi nəzarəti tədbirlərindən yayınan şəxslərin tapılması, onların olduqları yerlərin və şəxsiyyətlərinin müəyyənləşdirilməsi barədə daxil olmuş materialların hüquqi ekspertizasını aparmaq və nəticəsindən asılı olaraq aidiyyəti üzrə göndərilməsini və ya qaytarılmasını təmin etmək;

7.7.5. Hüquq-mühafizə orqanlarından (xarici dövlətlərin hüquq-mühafizə orqanları istisna olmaqla) daxil olmuş sorğuların, istintaq və əməliyyat tapşırıqlarının və qərarların icrasının təmin edilməsi üçün aidiyyəti üzrə göndərilməsini təmin etmək;

7.7.6. Daxil olmuş prosessual qərarları araşdırmaq və onların ödəmə qabiliyyətinin olmaması əsası ilə xitam (rədd) edilən və cinayət xarakterli faktların təsdiqini tapmayan hissəsini, o cümlədən vergilərin (icbari ödənişlərin) azaldılması ilə nəticələnəcək hissəsini aidiyyəti üzrə göndərmək;

7.7.7. Vergi ödəyicilərinin əməllərində ibtidai istintaqı Vergilər Nazirliyinin səlahiyyətlərinə aid edilmiş cinayətlərin əlamətlərinin aşkar edilməsi barədə, o cümlədən onların törətdiyi əməllərdə həmin cinayətin tərkibinin olub-olmamasının araşdırılması barədə daxil olmuş məhkəmə və hüquq-mühafizə orqanlarının qərarlarının icra edilməsi üçün aidiyyəti üzrə göndərmək;

7.7.8. Vergi orqanları tərəfindən tərtib edilmiş, vergi ödəyicisi tərəfindən imzalanmasından imtina edilmiş və məsuliyyətə cəlb etmə haqqında qərar çıxarılmamış səyyar vergi yoxlaması aktları üzrə yoxlama materiallarına baxaraq rəy vermək və həmin materialların aidiyyəti üzrə göndərilməsi zamanı verilmiş rəylərdə göstərilənlərə əməl edilib-edilməməsinə nəzarət etmək;

7.7.9. Bu əsasnamə ilə şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət (inzibati şikayətlər istisna olmaqla), təklif və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.7.10. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr

və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının şöbənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.7.11. Daxil olmuş materialların, qərarların və əlaqələndirmə fəaliyyəti üzrə digər sənədlərin uçotunu aparmaq (AVİS-in müvafiq altmodulunda uçota alınanlar istisna olmaqla), onları təhlil etmək, icmallaşdırmaq və nəticəsi barədə Departamentin rəhbərliyinə rüblük, yarımillik və illik arayışlar təqdim etmək;

7.7.12. Daxil olmuş materialların hüquqi ekspertizası zamanı aşkar olunan nöqsanların aradan qaldırılması ilə bağlı vergi orqanlarına metodiki köməklik göstərmək;

7.7.13. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, Vergilər Nazirliyinin təşkilati-sərəncamverici sənədlərinin öyrənilməsini təmin etmək;

7.7.14. Şöbənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində Departamentin rəhbərliyinə təkliflər vermək;

7.7.15. Daxil olmuş materialların hüquqi ekspertizası zamanı aşkar olunan nöqsanların qarşısının alınması məqsədi ilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

7.7.16. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.7.17.Normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.7.18. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**7.8. Cinayət xarakterli materialların hüquqi ekspertizası şöbəsinin hüquqları aşağıdakılardır:**

7.8.1. Daxil olmuş materialların hüquqi ekspertizası sahəsində görülmüş işlərin təhlili nəticəsində hüquqi aktların və Vergilər Nazirliyinin təşkilati-sərəncamverici və digər normativ sənədlərinin təkmilləşdirilməsi məqsədi ilə İdarənin rəhbərliyinə təqdim edilməsi üçün müvafiq təkliflər (layihələr) hazırlamaq;

7.8.2. Öz səlahiyyətləri daxilində Vergilər Nazirliyinin, ona tabe olan vergi orqanlarının, o cümlədən Departamentin fəaliyyətini tənzimləyən və hüquqi statusunu müəyyən edən qanunvericilik aktlarının, habelə təşkilati-sərəncamverici və digər normativ sənədlərin layihələrinin hazırlanmasında iştirak etmək;

7.8.3. Vəzifə funksiyalarının icrası ilə əlaqədar Vergilər Nazirliyinin struktur vahid və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

7.8.4. Vəzifə funksiyalarının icrası ilə əlaqədar vergi orqanlarının vəzifəli şəxslərindən və vergi ödəyicilərindən izahatlar almaq üçün Departamentin rəhbərliyinə müraciət etmək;

7.8.5. Daxil olmuş materialların hüquqi ekspertizası sahəsində tənzimləmə fəaliyyətinin həyata keçirilməsi zamanı vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliyi düzgün tətbiq etməməsi, habelə vəzifələrinin icrasında nöqsan və pozuntulara yol verməsi halları aşkar olunduqda, onların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi barədə Departamentin rəhbərliyinə müvafiq təkliflər vermək;

7.8.6. Vergilər Nazirliyində və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və şöbənin fəaliyyəti ilə bağlı keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə Departamenti təmsil etmək;

7.8.7. Vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində görülən tədbirlərdə iştirak etmək;

7.8.8. Daxil olmuş materialların hüquqi ekspertizası sahəsində beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Departamentin rəhbərliyinə təkliflər vermək;

7.8.9. Normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.8.10. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

**7.9. Hüquqi təminat şöbəsinin vəzifələri aşağıdakılardır:**

7.9.1. Vergilər Nazirliyinin və ona tabe olan vergi orqanlarının fəaliyyətini tənzimləyən və hüquqi statusunu müəyyən edən qanunvericilik aktlarının, habelə təşkilati-sərəncamverici və digər normativ sənədlərin layihələrini hazırlamaq;

7.9.2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Azərbaycan Respublikasının Milli Məclisi, Azərbaycan Respublikasının Nazirlər Kabineti, mərkəzi və yerli icra hakimiyyəti orqanları və digər dövlət müəssisə və təşkilatlardan şöbəyə daxil olmuş hüquqi akt layihələrinə və təkliflərə (beynəlxalq əməkdaşlıq və iqtisadi sahə üzrə qanunvericiliklə, həmçinin vergi qanunvericiliyi ilə bağlı layihələr və təkliflər istisna olmaqla) qanunla müəyyən edilmiş qaydada və müddətdə baxaraq münasibət bildirmək;

7.9.3. Vergilər naziri tərəfindən viza verilməsi üçün şöbəyə daxil olmuş hüquqi akt layihələrinə (beynəlxalq əməkdaşlıq və iqtisadi sahə üzrə qanunvericiliklə, həmçinin vergi qanunvericiliyi ilə bağlı layihələr istisna olmaqla) baxaraq müvafiq arayış hazırlamaq və Departamentin rəhbərliyinə təqdim etmək;

7.9.4. Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamları ilə, habelə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərar və sərəncamları ilə verilmiş tapşırıqların, təsdiq edilmiş dövlət proqramı və tədbirlər planlarının, habelə nazirliyin əmr və qərarları ilə təsdiq edilmiş tədbirlər planlarının şöbənin funksional fəaliyyət istiqamətləri üzrə icrasını təşkil etmək, icrası ilə bağlı hesabatların aidiyyəti üzrə təqdim edilməsini təmin etmək;

7.9.5. Vergilər Nazirliyinin rəhbərliyinə imzalanmaq üçün təqdim edilmiş qərar, əmr, sərəncam və məktub layihələrinə qanunvericiliyin və Vergilər Nazirliyinin normativ sənədlərinin tələbinə uyğun şəkildə baxmaq və həmin layihələrə münasibət bildirmək;

7.9.6. Vergilər Nazirliyinin struktur vahidləri və bölmələri tərəfindən hazırlanmış hüquqi aktların və Vergilər Nazirliyinin normativ sənədlərinin layihələrinə baxaraq münasibət bildirmək və normativ hüquqi aktların layihələrinə “Normativ hüquqi aktlar haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğun olaraq məcburi hüquqi ekspertiza rəyi vermək;

7.9.7. Vergilər Nazirliyinin normativ hüquqi akt hesab edilən Kollegiya Qərarlarını Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 1 iyul 2011-ci il tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə” ilə müəyyən edilmiş müddətdə və qaydada Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etmək;

7.9.8. Vergilər Nazirliyinin struktur vahid və bölmələrinin əsasnamələrinin aidiyyəti strukturların təklifləri əsasında hazırlanmasını təmin etmək və əsasnamələrin təkmilləşdirilməsi ilə bağlı departamentin rəhbərliyinə təkliflər vermək;

7.9.9. Bu əsasnamə ilə şöbənin səlahiyyətinə aid edilmiş məsələlər üzrə dövlət, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslərdən, habelə Vergilər Nazirliyinin struktur vahid və bölmələrindən daxil olmuş məktub, sorğu, ərizə, şikayət (inzibati şikayətlər istisna olmaqla), təklif və digər sənədlərə qanunvericiliklə müəyyən edilmiş müddətdə və qaydada baxılmasını, araşdırılmasını, cavablandırılmasını və göndərilməsini (təqdim edilməsini) təmin etmək;

7.9.10. Vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsi və vergi qanunvericiliyi ilə digər hüquqi aktlar arasında mövcud olan kolliziyaların (ziddiyyətlərin) aradan qaldırılması istiqamətində Vergilər Nazirliyinin müvafiq struktur vahidi ilə birlikdə təhlillər və müzakirələr aparmaq və nəticəsindən asılı olaraq zəruri tədbirlər görmək;

7.9.11. Vergilər Nazirliyinin təşkilati-sərəncamverici və digər normativ sənədlərinin ziddiyyətli, aydın olmayan və hüquqi əhəmiyyətini itirmiş müddəalarını müəyyənləşdirmək və nəticəsindən asılı olaraq həmin sənədlərin təkmilləşdirilməsi istiqamətində Departamentin rəhbərliyinə təkliflər vermək;

7.9.12. Vergilər Nazirliyinin aidiyyəti struktur vahidlərinin icraatında olan müraciətlər üzrə hazırlanmış sənəd layihələrinə baxılan zaman aşkar edilmiş qanunvericilikdə olan ziddiyyətli halları və boşluqları təhlil etmək və aidiyyəti hüquqi aktlarda dəyişikliklər edilməsi ilə bağlı layihələr hazırlamaq;

7.9.13. Hüquqi aktlarda edilmiş dəyişikliklərlə əlaqədar olaraq Vergilər Nazirliyinin təşkilati-sərəncamverici və digər normativ sənədlərinin qeyd olunan dəyişikliklərə uyğunlaşdırılmasını təmin etmək;

7.9.14. Vergilər Nazirliyinin struktur vahidi və bölmələrinə Vergilər Nazirliyinin fəaliyyət istiqamətləri üzrə hüquqi yardım göstərmək və hüquqi işlərin təşkili və qanunvericiliyin düzgün şəkildə tətbiqi ilə bağlı aşkar olunan nöqsanların qarşısının alınması məqsədi ilə treninqlərin keçirilməsi üçün təkliflər vermək, göstəriş məktublarının hazırlanmasını təmin etmək;

7.9.15. Zərurət yarandıqda Vergilər Nazirliyinin fəaliyyəti ilə bağlı mülki və digər müqavilələrin hazırlanmasında iştirak etmək və belə müqavilələrin hüquqi ekspertizasını həyata keçirmək;

7.9.16. Baxılması, təftiş edilməsi, münasibət bildirilməsi və məcburi hüquqi ekspertiza rəyi verilməsi məqsədi ilə daxil olmuş və göndərilmiş sənədlərin və hazırlanmış layihələrin uçotunu aparmaq, onları təhlil etmək, icmallaşdırmaq və nəticəsi barədə Departamentin rəhbərliyinə rüblük, yarımillik və illik arayışlar təqdim etmək;

7.9.17. Hüquqi işlərin təşkili və qanunvericiliyin düzgün şəkildə tətbiqi ilə bağlı vergi orqanlarına metodiki köməklik göstərmək;

7.9.18. Şöbənin vəzifəli şəxsləri tərəfindən aidiyyəti hüquqi aktların, Vergilər Nazirliyinin təşkilati-sərəncamverici və digər normativ sənədlərinin öyrənilməsini təmin etmək;

7.9.19. Şöbənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində Departamentin rəhbərliyinə təkliflər vermək;

7.9.20. Qanunvericiliyə uyğun olaraq kommersiya və (və ya) vergi və bank sirrinin və xidməti məlumatların qorunmasını təmin etmək;

7.9.21. Normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;

7.9.22. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

**7.10. Hüquqi təminat şöbəsinin hüquqları aşağıdakılardır:**

7.10.1. Hüquqi təminat sahəsində görülən işlərin təhlili nəticəsində hüquqi aktların və Vergilər Nazirliyinin təşkilati-sərəncamverici və digər normativ sənədlərinin təkmilləşdirilməsi məqsədi ilə Departamentin rəhbərliyinə təqdim edilməsi üçün müvafiq təkliflər (layihələr) hazırlamaq;

7.10.2. Vergilər Nazirliyinin, onun struktur vahidləri və bölmələrinin, o cümlədən Departamentin fəaliyyətini tənzimləyən və hüquqi statusunu müəyyən edən qanunvericilik aktlarının, habelə təşkilati-sərəncamverici və digər normativ sənədlərin layihələrinin hazırlanmasında və təkmilləşdirilməsində iştirak etmək;

7.10.3. Vəzifə funksiyalarının icrası ilə əlaqədar Vergilər Nazirliyinin struktur vahid və bölmələrinə, dövlət və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatların (sənədlərin) təqdim edilməsi (alınması) barədə sorğular hazırlamaq;

7.10.4. Vəzifə funksiyalarının icrası ilə əlaqədar vergi orqanlarının vəzifəli şəxslərindən və vergi ödəyicilərindən izahatlar almaq üçün Departamentin rəhbərliyinə müraciət etmək;

7.10.5. Hüquqi təminat sahəsində tənzimləmə fəaliyyətinin həyata keçirilməsi zamanı vergi orqanlarının vəzifəli şəxslərinin qanunvericiliyi düzgün tətbiq etməməsi, habelə vəzifələrinin icrasında nöqsan və pozuntulara yol verməsi halları aşkar olunduqda, onların aradan qaldırılması və müvafiq tədbirlərin görülməsi barədə Departamentin rəhbərliyinə müvafiq təkliflər vermək;

7.10.6. Aidiyyəti hüquqi akt layihələrinin hazırlanması məqsədi ilə beynəlxalq təcrübənin öyrənilməsi zərurəti yarandıqda, müvafiq beynəlxalq təcrübə barədə arayışın təqdim edilməsi üçün Vergilər Nazirliyinin aidiyyəti struktur vahidinə müraciət etmək;

7.10.7. Vergilər Nazirliyində və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında iştirak etmək və şöbənin fəaliyyəti ilə bağlı keçirilən yerli və beynəlxalq tədbirlərdə Departamenti təmsil etmək;

7.10.8. Hüquqi aktların layihələrinin hazırlanmasında iştirak etmək üçün müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

7.10.9. Vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının və ixtisaslarının artırılması istiqamətində görülən tədbirlərdə iştirak etmək;

7.10.10. Hüquqi təminat sahəsində beynəlxalq təcrübəni öyrənmək və qabaqcıl təcrübənin tətbiqi ilə bağlı Departamentin rəhbərliyinə təkliflər vermək;

7.10.11. Normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

7.10.12. Fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının qanunvericiliyi və Vergilər Nazirliyinin normativ sənədləri ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.